# Dərələyəz – ozanlar, aşıqlar yurdu

*Dağlar başı ala qar,*
*Ala yaylıq, ala qar,*
*Nə qədər qar yağmışdı,*
*Yağmamışdı belə qar...*

Bu bayatını Qəndab nənəm 1951-ci ildə dədə-baba yurdundan, Dərələyəzdən didərgin düşəndə çəkib. “Nə qədər qar yağmışdı. Yağmamışdı belə qar”, – deyəndə nənəm onu nəzərdə tutub ki, 1904–1905 və 1917–1918-ci illərdə olduğu kimi, 1948–1951-ci illər qaçaqaçının da zülmü, acısı, ağrısı çox olub. 1917–1918-ci və 1948–1952-ci illərin zülmünü isə öz gözləri ilə görmüşdü deyə, hesab edirdi ki, “belə qar heç zaman yağmayıb”.

Başı bəlalar çəkmiş arvad ümid edirdi ki, bu yağan axırıncı güclü qardır. Güman eləmirdi ki, 1988-ci il gələcək və o il dəhşətli bir çovğun qopacaq. Bu fırtına camaatı dədə-baba yurdundan həmişəlik didərgin salacaq.

Nənəm bu günü görmədi. Bircə onun qəbri bu hadisələrin şahidi oldu. Görəsən, yaşasaydı, bu günün bayatısını necə çəkərdi? Nənəm 4 qaçaqaçdan ikisinin şahidi olmuşdu. 1904–1905-ci illərdə uşaq olmuşdu, baş verənlər yadına gəlmirdi. Amma böyüklərin danışığından yaddaşına hopan əhvalatlar, ermənilərin qansızlığı ilə bağlı hadisələr dilindən düşməzdi. Özüylə apardı o yaddaş boxçasını...

1917–1918-ci illərdəki qaçaqaç-qovhaqov nənəmin gəlinlik çağlarına düşüb. Cavan əri, 5 balası öldürülüb. Yanıqlı-yanıqlı danışardı o günlərdən... Həmişə də ağlayardı.

1948–1952-ci illər isə nənəmin nəvəli günlərinə düşüb. 17 yaşlı Gülüstanı itirib. Getsin o günlər, gəlməsin, – deyərdi. Amma gəldi. Özü də necə gəldi... xalqımızın qızıla tutulası bir deyimi var ki, bu məqamda bütün bu baş verənləri 3–4 sözlə güzgü kimi əks etdirir:



## Yersiz gəldi, yerli qaç...

1828-ci ildə imzalanan Türkmənçay müqaviləsindən sonra Rusiyanın tərkibinə daxil edilən Dərələyəz bölgəsi İran və Türkiyədən buraya köçürülən ermənilərin hesabına etnodemoqrafik dəyişikliklərə məruz qalıb. Köçürmələrə qədər bölgədəki ailələrin 94,1 faizini Azərbaycan türkləri, 5,8 faizini ermənilər təşkil edirdisə, bundan sonra gəlmə ailələrin miqdarı 25,8 faizə çatıb.

1870-ci ildə Dərələyəz İrəvan quberniyasının tərkibində yaradılan Şərur–Dərələyəz qəzasına daxil edilib. 1897-ci il məlumatına görə, Dərələyəzin sahəsi 2 min 972,3 kvadratkilometr, əhalisi 76 min 551 nəfər olub. Həmin il əhalinin 70,5 faizini Azərbaycan türkləri , 27,5 faizini ermənilər təşkil edib.

1918–1920-ci illərdə Dərələyəzdəki Azərbaycan türkləri dəhşətli soyqırıma məruz qalıb, sağ qalanlar öz doğma yerlərini tərk etməyə məcbur edilib. Sovet hakimiyyəti illərində Dərələyəz bölgəsi heç bir əsas olmadan Azərbaycandan qoparılıb Ermənistana verilib. XX əsrdə Azərbaycan türklərinə qarşı aparılan soyqırım siyasəti nəticəsində soydaşlarımız Qərbi Azərbaycandan, o cümlədən Dərələyəzdən zorla deportasiya olunub. Yəni yersiz gəlib, yerlini qaçırdıb. Erməni millətçiləri ərazidəki yer adlarının əksəriyyətini dəyişdiriblər, tarixi abidələri isə ya saxtalaşdırıblar, ya da məhv ediblər.

Dərələyəzin tarixi, mədəni dəyərləri, saz-söz yadigarları isə qaynaqlarda qorunur və yaddaşlarda yaşayır. Sallı kəndində və vilayətin digər obalarında yaşayan, Dərələyəz, Göyçə, Naxçıvan və digər yerlərdə tanınan aşıq və şairlərdən bugünə zəngin bir irs qalıb. Dərələyəz ruhu hopmuş həmin örnəklər o yerlərin babalarımıza məxsusluğuna basılmış bədii möhürlərdir və daim bizi doğma yurda səsləyir.

## Dərələyəzdən Göyçəyə ozan yolu

Göyçə mahalı ilə Dərələyəz mahalı qoşadır, bu mahalları bir-birindən Səlim gədiyi ayırır. Bu aşırım dədə-babadan Dərələyəzdən Göyçəyə ozan yolu olub. Lap qədim zamanlardan başlayaraq hər iki mahalın saz-söz həvəskarları bir-birinin evinə gedib-gəlib, onların sazla-sözlə başlayan ünsiyyəti sonralar ailəvi dostluğa çevrilib. Bu gediş-gəliş də qar əriyəndən, yol-iz açılandan ta gədik bağlanana kimi davam eləyirmiş. Bir də gördün, Novruzdan sonra gediş-gəliş başladı, nə başladı. Payızın ikinci ayında da görərdilər ki, budur qar qapını alıb, gədik bağlanıb. Beləcə hər iki mahalın aşıqları yenə də həsrətlə gözləyərlərmiş yazın gəlməyini.



Bu sıradan Dərələyəz mahalının Sallı kəndinin saz-söz bilicilərinin Göyçənin aşıqları ilə olmuş dostluğu bir örnəkdir. Belə ki, Sallı kəndi Dərələyəzin “mərkəzi” hesab olunurmuş. Yol qırağında, münasib yerdə olması, bir də Dərələyəz aşıqlarının və şairlərinin çoxunun Sallıda yaşaması Göyçədən gələn aşıqları bu kəndə düşürürmüş. Burda Göyçənin ən məşhur aşıqlarından Ağ Aşıq ( Allahverdi), Aşıq Ələsgər, Məmmədhüseyn, Bəylər, Əbdüləzim, Usta Abdulla, Növrəs İman və s. kimi el sənətkarları ilə “aslan döyüşünə” girməyi bacaran saz-söz ustaları yaşayıblar.

Sallı kəndi ilə bərabər, Hors, Qovuşuq, Qabaxlı, Qaraqaya kəndləri də peşəkar aşıqlar məskəni sayılıb. XIX yüzilliyin sonu ilə XX yüzilliyin ortaları arasında Sallı kəndində 20-yə yaxın saz-söz sənətkarının çalıb-çağırmasından, burada mədəni həyatın olduqca qaynar keçməsindən soraq verir. Sallı kəndində ərsəyə gələn Aşıq Paşa, Qul Mustafa, Aşıq Cəlil, oğlu Aşıq Bəhmən və qardaşı Şair Məhəmməd, Aşıq Əsəd, onun oğlu Dəllək Xələf, Şair Rzaqulu, qardaşları Aşıq Qulu, Şair Təhməz, Rzaqulunun dayısı şair Alhüseyn, şair Məhəmmədəli, Aşıq Bəhmən, Aşıq Mirzalı, dayım Aşıq Abbas, Kəlbəcərdən gəlib Sallıda məskunlaşan Aşıq Əli və başqaları Dərələyəz aşıq mühitinin kamil saz-söz ustaları kimi şöhrətləniblər. Bu siyahı hələ Sallı kəndində yaşayan aşıq və şairlərin hamısını əhatə etmir.

## Hər obanın öz aşığı...

Qovuşuq kəndinin son nəsil sənətkarlarından olan Aşıq Nəsib Fərzəliyev də Dərələyəzdə və Naxçıvanda tanınan adlı aşıqlardan olub, el şənliklərində, toy-düyünlərdə, bayramlarda Dərələyəzi təmsil edib. Folklorçu professor İsrafil Abbasov İrəvandakı Matendaran Qədim Əlyazmalar İnstitutunda araşdırma apararkən Sallı kəndindən olan Aşıq Paşanın adına rast gəlir. Aşıq Paşanın XVI yüzilliyin ikinci yarısı ilə XVII yüzilliyin əvvəlləri arasında yaşayıb-yaratdığını ehtimal etmək mümkündür. Həmin mənbədəki 1687-ci il tarixli bir əlyazmada isə Qul Mustafanın aşağıdakı bəndlə başlanan gəraylısı verilmişdir ki, buradan da Qul Mustafanın Aşıq Paşanı ustad kimi qəbul eləməsi anlaşılır:

*Bulandı çeşmim seli,*
*Məgər bir gün durulmazmı?*
*Üzün gördüm, oldum dəli,*
*Aşıq Paşa dirilməzmi?*

Professor Məhərrəm Qasımlı “Ozan-Aşıq sənəti” (Bakı, “Uğur” nəşriyyatı, 2011) kitabındakı “Dərələyəz aşıq mühiti” materialında yazır: “Aşıq Paşa və Qul Mustafanın aşıq sənətinin təşəkkül və formalaşma mərhələsində yaşayıb yaratdığı göz qabağındadır. Olsun ki, Dərələyəz aşıq mühitinin əsası da Aşıq Paşa və onun davamçıları tərəfindən qoyulmuşdur. Burada belə bir cəhət də xüsusi maraq doğurur ki, Aşıq Paşa öz adı qarşısında “aşıq” sözünü məhz sənətkar ad-titulu kimi işlətmişdir. Bu mənada 1611-ci ilə məxsus əlyazmadakı “Aşıq Paşa” təxəllüsü “aşıq” sözünün sənətkar statusunda çıxış etdiyini soraq verən ilk yazılı qaynaqlardan biridir.

Dərələyəz aşıq mühitinin sonrakı dövr sənətkarları içərisində Sallı kəndindən olan Aşıq Cəlil xüsusi yer tutur. Aşıq Ələsgərlə yaxından dostluq eləyən Aşıq Cəlil yaratdığı havalan bir qayda olaraq ilk öncə böyük ustadın hüzurunda çalar, onun xeyir-duasını alarmış. Göyçə aşıq mühitində Aşıq Ələsgər hansı haqqa sahibdirsə, Dərələyəz aşıq mühitində Aşıq Cəlil həmin mövqeyin yiyəsidir. 15-dən yuxarı şagird yetişdirən Aşıq Cəlilin qardaşı və 3 oğlu, daha sonra isə 2 nəvəsi də aşıq olmuşdur. Kiçik oğlu Bəhmən məlahətli səsi və bənzərsiz çalğısı ilə atasının şöhrətini davam etdirmişdir. “Cəlil ocağı”nın son nümayəndəsi– Aşıq Cəlilin nəvəsi (Bacısının oğlu. Q.Kəngərli) aşıq Mirzalı 1993-cü ildə vəfat etmiş və bununla da Dərələyəz aşıq mühitinin əsas ocağı sönmüşdür”.

**Qulu KƏNGƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

Xalq qəzeti .- 2023.- 8 yanvar.- S.7.